

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 125 (24.262)

15 iyul 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 30 qəpik




## Brüsseldə Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə görüşü olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə iyulun 14-də Belçika Krallığına işgüzar səfərə gəlib.

Dövlətimizin başçısının Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə görüşü olub.

*Ölkəmizin beynəlxalq siyasi uğurlarından biri də onun BMT-dən sonra ikinci böyük təsisat olan Qoşulmama Hərəkatına sədrliyi idi. Qoşulmama Hərəkatı Azərbaycanın sədrliyi dövründə özünün ən yaddaqalan, uğurlu dövrünü yaşadı. Ötən müddət ərzində həyata keçirilən bir çox beynəlxalq miqyaslı layihələr münasibətlərin tənzimlənməsində, ölkələrarası əməkdaşlığın genişləndirilməsi və inkişafında mühüm amil oldu.*

## Qoşulmama Hərəkatı Azərbaycanın sədrliyi dövründə özünün səmərəli, uğurlu dövrünü yaşadı

Qoşulmama Hərəkatı (QH) hazırda beynəlxalq hüquqa hörmət əsasında dünyada sülh, təhlükəsizlik və inkişafa yardım etmək üçün əməkdaşlıq təsisatı rolunu oynayır. Hazırda 120 üzvü olan Hərəkatın təsis edilməsi istiqamətində ilk addımlar 1955-ci ildə İndoneziyanın Bandunq şəhərində keçirilən Asiya-Afrika Konfransında atılmışdır. Təşkilata üzv olan hər bir dövlət "Bandunq prinsipləri" nə bağlı olduğunu bildirməlidir. Bu prinsiplərin təməlində əsas insan hüquq və azadlıqlarına hörmət etmək, digər dövlətlərin daxili işlərinə qarışmaqdan çəkinmək, BMT Nizamnaməsinə uyğun olaraq bütün beynəlxalq mübahisələri dinc, sülh yolu ilə həll etmək, öhdəliklərə hörmət etmək və sair dayanır. Dünyada böyük inam və etibar qazanmış Azərbaycan 2011-ci il mayın 26-da İndoneziyanın Bali adasında Hərəkata üzv olan dövlətlərin yekdil dəstəyini qazanmış və Qoşulmama Hərəkatına tam hüquqlu üzv qəbul olunmuşdur. 25-26 oktyabr 2019-cu il tarixdə Bakı şəhərində keçirilən Hərəkatın 18-ci dövlət və hökumət başçılarının Zirvə Görüşündə Hərəkatda Sədrlik 2019-2022-ci illər üzrə Azərbaycan Respublikasına keçmişdir. Hərəkata səmərəli sədrliklə bağlı qazandığı dəyərli təcrübə nəzərə alınaraq Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi 2023-cü ilə qədər uzadılmışdır.

Ölkə başçısının təşəbbüsü ilə təsis edilmiş COVID-19 pandemiyasına qarşı mübarizə üzrə işçi qrupu hərəkata üzv dövlətlərinin pandemiyaya qarşı mübarizədə birlik olaraq tibbi, sosial və humanitar dəstək göstərmələrində böyük rol oynamışdır. Həmçinin hərəkat üzvləri peyvənd ayrı-seçkiliyinə qarşı birgə mübarizə göstərmişlər. Ölkəmiz Qoşulmama Hərəkatına üzv olan 80-dən çox ölkəyə ikitərəfli qaydada maliyyə və humanitar yardımı etmiş, Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları məbləğində könüllü töhfə vermişdir.

Bu dövrdə keçirilən bir sıra zirvə görüşlərində Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı qəbul edilmiş yekun sənədlərdə dövlətlər münaqişənin məhz Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi və beynəlxalq miqyasda tanınmış sərhədləri daxilində həllinə dəstəyi ifadə etmişdir. Qoşulmama Hərəkatının Əlaqələndirici Bürosunun 4 aprel 2020-ci il tarixdə qəbul etdiyi "Azərbaycan Respublikasının işğal altındakı ərazilərində keçirilmiş qondarma "seçkilər"lə bağlı Kommunike" də hərəkata üzv dövlətlər Dağlıq Qarabağ bölgəsində keçirilmiş qondarma prezident və parlament seçkilərini tanımadıqlarım və bu aktı qeyri-qanuni hesab etdiklərini bəyan etmiş, bir sıra qərəzli və qarayaxma kampaniyalarına qarşı birgə mübarizə aparılmışdır. 44 günlük Vətən müharibəsi dövründə qəbul olunmuş Xüsusi Bəyannamədə Qoşulmama Hərəkatına üzv dövlətlər Ermənistan-Azərbaycan münaqişəsində mülki şəxslər arasında itkilərlə müşayiət olunan toqquşmaların bərpasından narahatlıq ifadə etmiş, münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həllinə prinsipial dəstəklərini bir daha bildirərək, Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə dəstəklərini vurğulamış, Bəyannamədə üzv dövlətlər Hərəkatın prinsipial mövqeyi əsasında Azərbaycan Respublikası ilə həmrəyliklərini bildirmişdir. Həmçinin BMT Təhlükəsizlik Şurasının ölkəmizin mövqeyinə zidd olan bəyanat layihəsinin qəbulunun qarşısı alınmışdır.



Qoşulmama Hərəkatına Azərbaycanın sədrliyi çərçivəsində Prezident cənab İlham Əliyevin təşəbbüsü ilə pandemiya üzrə Qoşulmama Hərəkatı Təmas Qrupunun Zirvə Görüşünün, Madriddə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi, eləcə də Gənclər Təşkilatının təsis edilməsi, Şuşa Akkordu ilə Hərəkatın Gənclər Təşkilatının loqo və bayrağının təsdiq edilməsi və bir çox tarixi əhəmiyyətli addımlar Hərəkata sədrliyin uğurlarındandır.

İyulun 5-də Bakı Konqres Mərkəzində Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda keçirilən nazirlər görüşü növbəti əhəmiyyətli görüşlərdən biri kimi yadda qaldı. Burada Prezident cənab İlham Əliyevin etdiyi çıxış dünya mediasının diqqət mərkəzində idi.

Neokolonializm siyasətini (iqtisadi ekspansiya, inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrin iqtisadi, sosial, siyasi və mədəni işlərinə qarışması) hələ də davam etdirən, özünün müstəmləkə imperiyası ilə tanınan Fransa tarixlərindəki bu qara ləkəni gizlətməyə çalışsalar da, Əlcəzair, Seneqal, Madaqaskar, Kamerun, Ruanda, Çad, Mərakeş kimi ölkələrin hamısında öz qanlı izlərini qoyub. Fransa bu gün islamofobiyanın, irqi ayrı-seçkiliyin ən çox yayıldığı ölkələr sırasında ilk sıradadır. Ölkə başçısı sözügedən görüşdə Fransanın idarə etdiyi ərazilərin fransız müstəmləkə imperiyasının iyrənc qalıqları olduğunu bildirərək Fransanı Afrika, Cənub-Şərqi Asiya və digər yerlərdə Qoşulmama Hərəkatının üzvü olan dövlətlərə qarşı "soyqırımı aktlarına" görə də üzr istəməyə çağırdı.

Fransanın ermənipərəst mövqeyi, qərəzli, reallığı əks etdirməyən və regionda sülhə təhdid yaradan təxribatçı addımları məhz onun müstəmləkəçi xarakterindən, riyakarlıq və ikili standartlar yeritməyindən irəli gəlir. Fransa torpaqlarımızın 30 illik işğalı dövründə bir dəfə belə haqq, ədalət, beynəlxalq hüquq müstəvisindən çıxış etmədi və bu gün də işğalçı dövləti müdafiə etməklə dünyadakı sülh və təhlükəsizliyə böyük təhdid yaradır.

44 günlük Vətən müharibəsi nəticəsində kapitulyasiya aktına imza atmaqla bir çox öhdəlikləri üzərinə götürən və lakin hələ də yerinə yetirməyən Ermənistan sərhəddə təxribatlar və ekoloji fəlakətlər törədir. Ölkə başçısı həmin görüşdə davamlı sülh üçün Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımış Ermənistanın silahlı qüvvələrini Azərbaycanın Qarabağ bölgəsindən tamamilə çıxarmağa, həmçinin Azərbaycanın əsas hissəsini onun Naxçıvan Muxtar Respublikası ilə bağlayacaq Zəngəzur dəhlizinin açılmasına mane olmamağa çağırdı.

Keçirilən görüş hərəkata üzv ölkələrin bir çox məsələlərdə həmfikir olduqlarını, birgə və qətiyyətlə mübarizəni davam etdirilməsinin bundan sonra da vacib olduğunu göstərdi.

**Güntac ŞAHMƏMMƏDLİ**

## AMEA Naxçıvan Bölməsində yarım ilin yekunları müzakirə olunub

*AMEA Naxçıvan Bölməsində yarım ilin yekunları ilə bağlı hesabat iclası keçirilib. İclası açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bölmə əməkdaşlarının ümumi fəaliyyətinə nəzər salıb, cari ilin altı ayı ərzində qeydə alınan göstəriciləri ötənilki göstəricilərlə müqayisə edib.*

Daha sonra Naxçıvan Bölməsi Aparatının Elm və təhsil şöbəsinin müdiri, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Orxan Bağırov AMEA Naxçıvan Bölməsinin 2023-cü ilin birinci yarısı üzrə elmi və elmi-təşkilati fəaliyyəti barədə məruzə edib.

Hesabat dövründə tədqiqatlar 3 elmi istiqamətdə, 3 problemi əhatə edən, 3 mövzuya daxil olan 17 iş 35 mərhələ üzrə yerinə yetirilmişdir. Elmi araşdırmalar 1 akademik, 3 professor, 3 elmlər doktoru, 19 fəlsəfə doktoru, 9 doktorant və dissertant tərəfindən aparılmışdır.

Orxan Bağırov bildirib ki, 2023-cü ilin birinci yarısında bölmə əməkdaşlarının 8-i monoqrafiya, 3-ü kitab, 1-i proqram, 101-i elmi məqalə, 31-i konfrans materialı, 4-ü tezis olmaqla, 148 elmi əsəri nəşr olunmuşdur. Əsərlərdən 1 monoqrafiya, 11 məqalə, 4 konfrans materialı, 4 tezis xaricdə çap edilmiş, elmi məqalələrin 6-sı impakt faktorlu jurnallarda çapdan çıxmışdır.

Elmi məqalələrin 15-i xaricdə olmaqla, 97-si beynəlxalq kodlu nüfuzlu elmi jurnallarda dərc olunmuş, əməkdaşların əsərlərinə 202 istinad qeydə alınmışdır. Bölmə əməkdaşlarının 170 qəzet məqaləsi işıq üzü görmüşdür. Bölmənin Rəyasət Heyəti tərəfindən 6 kitab və monoqrafiya çapa tövsiyə edilmişdir.

Bölmədə nəşr olunan "Elmi əsərlər" və "Axtarışlar" jurnallarının hər birinin 2 nömrəsi çapdan çıxmış, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə keçirilən "Heydər Əliyev ideyaları və müasir dövr" adlı respublika konfransının materialları çapa təqdim olunmuşdur. "Taleyi və sənəti" seriyasından Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Taleyi və siyasi fəaliyyəti" seriyalı məqalələr toplusu çapa hazırlanmışdır.

2023-cü ilin birinci yarısında bölmədə 1 respublika səviyyəli, 11 bölmə səviyyəli elmi konfrans, 6 tədbir, 7 kitab və monoqrafiya təqdimatı keçirilmişdir.

Məruzəçi diqqətə çatdırıb ki, Naxçıvan Dövlət Universitetinin tələbələrinin iştirakı ilə elmi-tədqiqat müəssisələrində müvafiq layihələr çərçivəsində tədbirlər keçirilmişdir.

2023-cü ildə alim və ziyalılarla məktəblilərin görüşünün təşkil olunması xüsusi diqqətdə saxlanılmış, "Sabahın tədqiqatçıları" layihəsi üzrə 19 şagird bölmə alimləri tərəfindən tədqiqatlara cəlb edilərək uğurlu nəticələr əldə etmişlər.

İlin birinci yarısında bölmənin Elmi Kitabxanasının fonduna 2212 ədəd kitab, 65 ədəd jurnal, 48 ədəd avtoreferat, 1 ədəd dissertasiya daxil edilmiş, 6 sərgi təşkil olunmuşdur.

Əməkdaşlardan filologiya elmləri doktoru Nuray Əliyeva Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən diplom, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov isə AMEA Naxçıvan Bölməsinin Fəxri Fərmanı ilə təltif edilmiş, filologiya üzrə fəlsəfə doktoru, dosent Aytən Cəfərova "Təşəkkür bəlgəsi" almışdır.

Sonda çıxış edən AMEA-nın müxbir üzvləri, Naxçıvan Bölməsi Rəyasət Heyətinin üzvləri professorlar Hacıfəxrəddin Səfərli, Əbülfəz Quliyev və Vəli Baxşəliyev bölmənin cari ilin birinci yarısı üzrə hesabatını məqbul hesab edərək qəbul olunmasını təklif ediblər, hesabat qəbul olunub.

*AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti*

## 14 iyul 1969-cu il – müstəqil və qüdrətli Azərbaycanın təməlinin qoyulduğu əlamətdar tarixi günə həsr olunmuş tədbirlər keçirilib



İyulun 14-də Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının iştirakı ilə Heydər Əliyev Muzeyində Ümummilli Lider, dahi siyasi xadim Heydər Əliyevin Azərbaycana rəhbərliyinin 54-cü ildönümünə həsr olunmuş tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, dosent Elman Cəfərli "Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ilk mərhələsi – milli intibah dövrü" mövzusu ətrafında çıxış edib. Bildirib ki, 1969-cu ilin iyulunda Ulu Öndər Heydər Əliyevin Azərbaycanda rəhbərliyə gəlməsindən sonra respublikada dərin modernləşdirmə prosesi başlamışdır. Cəmi 13 il 4 aylıq hakimiyyəti ərzində Ümummilli Lider həyata keçirdiyi çoxsahəli islahatlar Azərbaycanı sənaye-aqrar respublikasına çevirmiş, bu dövrdə neft-qaz, maşınqayırma, cihazqayırma, yüngül, yeyinti və digər sənaye sahələri xeyli inkişaf etmiş, tikinti-quruculuq işləri geniş vüsət almış, kənd təsərrüfatının intensiv inkişafı təmin edilmişdir. Bu dövrdə Azərbaycanda 313 yeni iri sənaye müəssisəsi, o cümlədən Naxçıvanda 21 iri sənaye müəssisəsi tikilib istifadəyə verilmiş, sənaye məhsulu istehsalının real həcmi 2,7 dəfə artmış, milli sənaye keçmiş ittifaqın bütün respublikaları arasında ən yüksək sürətlə inkişaf etmiş, sənaye istehsalının ümumi həcmi 1970-ci ilədək olan 25 illik dövrün istehsalını 2,0 dəfə üstələmişdi.

Diqqətə çatdırılıb ki, 1982-ci ildə kənd təsərrüfatının ümumi məhsulunun 1969-cu illə müqayisədə 2,5 dəfə artımına nail olunmuşdur. Nəticədə, Azərbaycan iqtisadiyyatı böhrandan çıxaraq bütün sahələr üzrə sürətlə inkişaf etmiş, iqtisadi və milli gəlir 1969-82-ci illərdə Azərbaycanda məktəbəqədər təhsil müəssisələrinin sayı 1600-dən 1875-ə çatmış, 849 ümumtəhsil məktəbi tikilib istifadəyə verilmiş, 6 yeni ali məktəb yaradılmışdı. 1970-80-ci illərdə dahi şəxsiyyət Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı sayəsində Azərbaycandan kənarda, SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən məşhur ali məktəbində 15 mindən artıq azərbaycanlı gənc təhsil almış, yüksəkixtisaslı mütəxəssislər kimi hazırlanmışdı.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədr müavini, Heydər Əliyev Muzeyinin direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Ramil Orucəliyev "Qayıdışdan Zəfərə uzanan yol" mövzusunda çıxışında qeyd etmişdir ki, 1987-ci ildə Ulu Öndər Heydər Əliyev SSRİ rəhbərliyindən istefa verdikdən sonra ölkəmiz üçün çox ağır və çətin bir şəraitdə 1990-cı il iyulun 20-də Bakıya, iyulun 22-də isə Naxçıvana qayıtdı. 1990-cı ilin sentyabrında Azərbaycan və Naxçıvan ali sovetlərinə deputat seçilən Heydər Əliyev 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasının həm düşmən təcavüzündən qorunmasında, həm də düşdüyü ağır sosial-iqtisadi, mənəvi-siyasi böhrandan çıxarılmasında müstəsna rol oynadı. Azərbaycanın xarici təzyiqlər və daxili çəkişmələr nəticəsində 1993-cü ilin iyununda vətəndaş qarşıdurması, dağılmaq təhlükəsi ilə üz-üzə qaldığı bir vaxtda xalqımız yenidən öz taleyini məhz dahi siyasətçi Heydər Əliyevə etibar etməklə müdrik qərar qəbul etdi. Xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan dünya şöhrətli dövlət xadimi Heydər Əliyev siyasi təcrübəsi, uzaqgörənliyi və sarsılmaz iradəsi sayəsində nəinki ölkəni məhv olmaq təhlükəsindən qurtardı, eyni zamanda yeni iqtisadi inkişaf mərhələsinin əsasını qoydu.

Ramin Orucəliyev diqqətə çatdırıb ki, hazırda ölkəmizdə Ulu Öndər Heydər Əliyevin milli dövlətçilik konsepsiyası möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən yeniləşən siyasi mərhələnin çağırışlarına uyğun şəkildə davam etdirilir. Məhz bunun nəticəsidir ki, 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən 44 günlük Vətən müharibəsində ölkəmiz öz torpaqlarının 20 faizinin ermənilər tərəfindən 30 illik işğal dövrünə son qoyaraq düşməni döyüş meydanında darmadağın etmiş, öz tarixində yeni mərhələnin əsasını qoymuşdur. Bu mərhələ Azərbaycan dövlətçiliyinin əbədi mövcudluğa istiqamətlənmiş şanlı Zəfər mərhələsidir.

Sonda tədbir iştirakçıları Heydər Əliyev Muzeyinin ekspozisiyası ilə tanış olublar.

***

Muxtar respublikanın rayonlarında da bu əlamətdar gün münasibətilə tədbirlər keçirilib. Tədbirlərdən əvvəl Ulu Öndərin həmin rayon mərkəzlərində ucaldılan abidə və büstləri ziyarət edilib, əziz xatirəsi ehtiramla yad olunub. Tədbirlərdəki çıxışlar zamanı bildirilib ki, ölkəmizin çoxəsrlik dövlətçilik tarixində



Heydər Əliyev epoxasının müstəsna yeri vardır. Bu mənada, Ulu Öndərin Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu ilin 14 iyul günü xalqımızın tarixi taleyində oynadığı misilsiz rolu ilə daim xatırlanır. Bu tarix Azərbaycanın xilasının birinci mərhələsi, xalqın özünə qayıdış tarixidir. Dünya şöhrətli siyasi xadim öz müdrik fəaliyyəti ilə müasir tariximizin ən şanlı və parlaq salnaməsini yaradıb. Buna görə də Ümummilli Liderimizin xalqa xidmətdə keçmiş parlaq və mənalı ömrünün hər anı siyasi təqvimimizdə özünəməxsus yerə malikdir.

Diqqətə çatdırılıb ki, 1969-cu ilin 14 iyulu tarixə Azərbaycanın özünə qayıdışının, dirçəliş və inkişaf yolunun başlanğıcı kimi düşüb. Çünki məhz həmin tarixdən etibarən Azərbaycana rəhbərlik edən Ulu Öndər Heydər Əliyev qüdrətli dövlət xadimi, mahir siyasətçi kimi Azərbaycanı nəinki keçmiş SSRİ-də və dünyada tanıdıb, həm də milli varlığımızı qoruyub saxlayıb. Buna görə də 14 iyul tarixi xalqımızın qəlbində həm də milliliyin, Azərbaycançılığın, tarix səhifəsində milli dövlət-



çiliyimizin əbədi mövcudiyyət günü kimi qəbul edilir.

Qeyd olunub ki, tarixin yetirdiyi görkəmli şəxsiyyətlərdən olan Heydər Əliyevin parlaq siyasi zəkası sayəsində iki əsrin və iki minilliyin qovuşuğundakı Azərbaycan öz milli-mənəvi dəyərlərini qoruyaraq üçüncü minilliyə inamla qədəm qoyub. Heydər Əliyev zəkası bütün sədləri yararaq qarşıya çıxan çətinliklərə baxmayaraq, Azərbaycanı olduqca mürəkkəb zamanın dalğaları arasından salamat çıxarıb, ona həm bölgədə, həm də dünyada layiqli yer qazandırıb.

Azərbaycanın bu gün bütün dünyada özünəməxsus milli-mənəvi keyfiyyətlərə, adət-ənənələrə, mədəni dəyərlərə malik ölkə, qüdrətli sənaye respublikası, yüksək intellektual səviyyəsi, bütün müsəlman Şərqinə örnək olan müstəqil ölkə kimi tanınması məhz Ulu Öndərimiz Heydər Əliyevin fəaliyyətinin nəticəsidir. Hər bir Azərbaycan vətəndaşı dərk edir ki, müstəqil və demokratik dövlətdə yaşadıqlarına, bütün demokratik dəyərləri özündə əks etdirən vətəndaş cəmiyyətində fəaliyyət göstərdiklərinə, xoşbəxt gələcəklərinin sahibləri olduqlarına görə Heydər Əliyev şəxsiyyətinə borcludurlar.

Əlamətdar gün münasibətilə rayonlarda konsert proqramları təşkil olunub, Ordubad rayonunda 25 iyun-2 iyul 2023-cü il tarixlərdə Qəbələ şəhərində Ümummilli Lider Heydər Əliyevin 100 illiyi münasibətilə keçirilən "Gənc xilasedici və yanğınsöndürən" X Ümumrespublika yarışında I yerə layiq görülmüş Sabirkənd kənd tam orta məktəbinin komandasının rəhbər və üzvləri təltif edilib, "Əbədiyyətin ilk əsri", Kəngərli rayonunda isə "Heydər adlı zirvə" sənədli filmləri nümayiş olunub.

**Xəbərlər şöbəsi**

## Yeni Dövlət Proqramında qarşıya qoyulmuş vəzifələri prioritet edən nədir

*Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 5 iyun 2023-cü il tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" qəbul olunub. Xüsusilə 2004-cü ildən etibarən icra olunmuş Dövlət proqramlarından fərqli olaraq yeni proqramda əsas diqqəti cəlb edəcək məsələlərdən biri həyata keçiriləcək tədbirlərin qarşıdakı dövrdə müasir çağırışlara uyğunluğunun nəzərə alınmasıdır. Bu baxımdan yeni proqramda təklif olunan istiqamətlərin qlobal təşəbbüslərə açıq olması sürətlə dəyişən dünyanın innovativ tələblərinə inteqrasiyasını da hamı üçün əlçatan edir. Bu istiqamətlər isə yeni qəbul edilmiş dövlət sənədində 11 prioritet üzrə cəmlənmişdir. Və bu prioritetlər Dövlət Proqramının təməl prinsiplərini təşkil edir. Elə bu yazıda da həmin prioritetlərin mahiyyətini anlamağa çalışacağıq.*

Sərəncamda regionların sosial-iqtisadi inkişafı sahəsində beynəlxalq təcrübələrin təhlilinə əsaslanaraq qeyd olunur ki, son illər ərzində regionların potensialından istifadənin səmərəliliyinin və iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artırılması, yaşıl iqtisadiyyatın formalaşdırılması, innovativ yanaşmaların tətbiqi kimi məsələlər ön sırada yer alır. Təsadüfi deyil ki, bütün bunlara nail olunması üçün, ilk növbədə, regionda əlverişli biznes mühiti yaradılmalıdır. Hansı ki proqramın I bəndində də bu qeyd olunub.

Əlverişli biznes mühiti odur ki, dövlət burada üzərinə öhdəliklər götürür: qanunvericilik bazasını təkmilləşdirir, hüquqi mexanizmlərin işləkliyini təmin edir, bizneslə məşğul olanlar üçün prosedurları sadələşdirir, biznesə yönəldilən vəsaitlərin güzəştli şərtlərlə ödənilməsinin yollarını açır, vergi şəffaflığını, sığorta fəallığını nəzarətdə saxlayır, məhsul və xidmətlərin ixracı üçün davamlı olaraq təşviqedici vasitələri tətbiq edir, istənilən monopol hərəkətlərin qarşısını dərhal alır və sair. Əgər bir ölkədə və yaxud regionda əlverişli biznes mühiti olarsa, ora xarici investisiyaların da axını olacaq. Digər tərəfdən, əlverişli biznes mühiti olmadan ticarətin, ixracyönümlü sənayenin, kənd təsərrüfatının, turizmin, sosial sektorun, insan kapitalının və digər sahələrin inkişafı mümkün deyil. Elə bütün bu tərəfləri nəzərə alınaraq Dövlət Proqramında 1 nömrəli prioritetin icrası üçün regionda azad iqtisadi zonanın yaradılması, hüquqi və fiziki şəxslərə vergi, gömrük, sosial sığorta və digər sahələrdə güzəştlərin tətbiq edilməsi, yerli və xarici investisiyaların cəlb edilməsi ilə bağlı tədbirlərin görülməsi, bank və sığorta xidmətlərinin əhatə dairəsinin genişləndirilməsi, sahibkarlıq subyektlərinə güzəştli kreditlərin verilməsi, zəmanət və digər dəstək mexanizmlərinin tətbiq dairəsinin genişləndirilməsi, gömrük sərhəd-buraxılış məntəqələrində keçidin sürətləndirilməsi və yükötürmə qabiliyyətinin artırılması istiqamətində iş aparılması qarşıya vəzifə kimi qoyulub.

İkinci yerdə qəbul edilən prioritet istiqamət isə ticarətin inkişafıdır. Ticarət anlayışı qədim zamanlardan mövcuddur və müasir iqtisadiyyat, demək olar ki, bu anlayış üzərində formalaşıb desək, yəqin ki, yanılmarıq. Digər ölkələrlə alış-veriş imkanlarının daha rahat olmasına imkan verən ticarət əlaqələri müasir dövrdə, əsasən, ixrac-idxal əməliyyatlarını nəzərdə tutsa da, burada güzəştli bazar münasibətlərinin olması onu daha da cəlbedici edir. Bu cəlbedicilikdə əsas məqamlardan biri odur ki, ticarət qovşaqları, adətən, sərhədyanı bölgələrdə, dəhlizlər üzərində və yaxud mühüm ticarət yollarının kəsişdiyi qovşaqlarda yerləşir. Naxçıvanın təbii-coğrafi mövqeyi keçmiş zamanlardan ticarət üçün ən əlverişli marşrutlardan sayılıb. Təsadüfi deyil ki, Böyük İpək Yolunun da buradan keçməsi bu qədim diyarı şərqlə qərb arasında mühüm və əlverişli ticarət mərkəzinə çevirib. Bu mənada, ölkə başçısı cənab İlham Əliyevin Sərəncamı ilə qəbul edilmiş Dövlət Proqramında Naxçıvanın ticarət mərkəzi kimi yenidən təşəbbüsü öz əlinə alması region üçün atılmış ən böyük addımlardan biridir. Proqramda II prioritetin ticarətin inkişaf etdirilməsi ilə bağlı olması da, bu mənada, təsadüfi deyil. Ticarətin inkişafı ilə bağlı hansı işlərin görülməsi ilə alaqədar layihələr proqramda əks olunduğundan bir daha onları təfsilatı ilə yenidən qeyd etmirik.

Dövlət sənədində III prioritet ixracyönlü sənayenin inkişafını nəzərdə tutur. Müasir dövrdə sənayenin inkişafı o qədər genişlənib ki, məhsul istehsalında ən böyük pay da elə sənaye istehsalına düşür. Bu gün istənilən inkişaf etmiş ölkədə Ümumi Daxili Məhsul İstehsalına və yaxud idxal-ixrac əməliyyatlarının statistikasına baxsaq, ən çox yerdə yenə də sənaye məhsullarının dinamikasını görəcəyik. Burada da əsas səbəblərdən biri odur ki, indiki dövrdə sənaye istehsalına cəlb olunmayan çox az məhsul var. Hətta kənd təsərrüfatı məhsullarının belə böyük bir qismi sənaye istehsalı prosesindən keçərək satışa çıxarılır. Digər tərəfdən, sənaye yolu ilə istehsal, daha çox məhsul istehsal etməkdir. Burada diqqət olunmalı məsələlərdən biri odur ki, müasir dövrdə keyfiyyətli, ixracyönlü, rəqabət qabiliyyəti yüksək olan məhsul istehsal etmək üçün müasir texnologiyalara əsaslanan avadanlıqların olması şərtdir. Məlumdur ki, bu gün dünyada çox az sayda ölkələr istehsal



sənayesi üçün keyfiyyətli avadanlıqlar istehsal etmək gücündədir. Bu cür avadanlıqlar isə, adətən, bahalı olur. Maraqlı statistikalardan biri odur ki, bu gün istehsalçı dünya ölkələrinin bir çoxunda sənaye avadanlıqlarının 40 faizi müəyyən qədər tələbləri yerinə yetirsə də, yeni deyil. Bunun da səbəbləri müxtəlifdir. Bəzi hallarda sahibkarların bu cür avadanlıqların alınmasına yetərli imkanları yoxdur. Buna görə də bəhs etdiyimiz proqramda təkcə ixracyönlü və keyfiyyətli deyil, eyni zamanda yüksək rəqabətqabiliyyətli sənaye sahələrinə dövlət dəstəyi və investisiyaların cəlb olunacağı aydın şəkildə qeyd edilib. Burada bir məsələni də vurğulamaq yerinə düşər ki, ümumiyyətlə, Azərbaycanda müxtəlif sənaye sahələrinin inkişaf etdirilməsi üçün dövlət sahibkarlara məxsus bütün sənaye parklarının yenilənməsində maraqlıdır. Bu baxımdan da istər muxtar respublikada fəaliyyətə başlayacaq yeni sənaye parkı (Şərur Sənaye Parkı), eləcə də digər yeni istehsal subyektlərində rəqabətyönümlü məhsul istehsal etmək üçün lazımi imkanlar yaranacaq.

*(ardı var)*

**✍ Səbuhi HƏSƏNOV**

## Qeydiyyata alınmış vergiödəyicilərinin sayı 2,1 dəfə artıb

2023-cü ilin yanvar-iyun aylarında Naxçıvan Muxtar Respublikasında 2.936 yeni vergiödəyicisi qeydiyyata alınıb. Bunların 88,3 faizi fiziki, 11,7 faizi hüquqi şəxslər və digər təşkilatlar olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə qeydiyyata alınmış vergiödəyicilərinin sayı 2,1 dəfə, o cümlədən fiziki şəxslərin sayı 2 dəfə, hüquqi şəxslərin sayı isə 34 dəfə artıb. Cari ilin yanvar-iyun aylarında kommersiya qurumlarının 55,4 faizi elektron qaydada, 44,6 faizi isə kağız daşıyıcılar vasitəsilə edilmiş müraciətlər əsasında uçota alınıb.

2023-cü ilin 6 ayında qeydiyyatdan keçmiş obyektlərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,2 dəfə artaraq 1.353 vahid olub. Cari ilin iyun ayında qeydiyyatdan keçmiş obyektlərin sayı ilin əvvəli ilə müqayisədə 3,5 dəfə çox olub. Yanvar-iyun aylarında qeydiyyatdan keçmiş obyekti olan ƏDV ödəyicilərinin sayı isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,7 dəfə artıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

*Əfsanəyə dönən ömürlər*

## Bir vüsal nəğməsidir şəhid məzarı

*Taleyinə şəhidlik zirvəsi yazılan, doğulduğu torpaqdan yüzlərlə kilometr uzaqda "Öncə Vətəndir", – deyib canından keçən Vüsal Vəliyevin əziz xatirəsinə*



Yenə həmin gün gəldi, yenə məzarın başında səninlə danışıram, şəhidim, sənə demək istədiyim sözləri sətir-sətir vərəqə köçürürəm. Məhz köçürürəm, nöqtəsinə, vergülünə toxunmadan, bir sözünü dəyişmədən əzbər bildiyim bir şeir kimi...

35 il öncə, elə ilin bu vədəsində 15 iyul 1988-ci ildə Vəliyevlərin ailəsində bir oğlan uşağı dünyaya göz açdı. Adını Vüsal qoydu atası İslam əmi. Həmin illərdə Vətənin başını qara buludlar almışdı. Anası Mədinə xanım Vüsalının və digər övladlarının taleyindən çox nigaran idi. O da hamı kimi hiss edirdi gələcək qara günləri. Elə də oldu, çətin günlər başladı. Aclıq, müharibə yurdumuzu əldən salmışdı. Amma mərd azərbaycanlı qadınları kimi o da balalarını Vətənə, yurda bağlı böyüdürdü. İllər gəlib keçirdi, müharibə, çətinlik dayanmaq bilmirdi. Uşaqlarını top mərmilərinin səsi altında böyüdürdü digər analar kimi Mədinə ana da. Qarabağ işğal edilmişdi artıq Vüsalın 6 yaşı olanda. O da digər uşaqlar kimi düşmənə nifrət hissi ilə böyüdü. Ən böyük amalı Vətənin bütövlüyü oldu. Hərbçi olmaq qərarını evdəkilərə bildirəndə ananın gözləri yaşla doldu oğlunun bu istəyindən: – Get, oğlum, oxu, Vətənin müdafiəçisi, torpaqlarımızın azadlıq, sülh göyərçini ol, – dedi övladına. Haradan bilərdi ki, Tanrı həmin gün Mədinə ana kimi onlarla ananın bu alqışını, duasını qəbul etdi. Haradan bilərdi ki, bu arzu həm də oğluna şəhidlik arzulamaq, onun Allahın süfrəsinə qonaq olmağının arzusu idi. Oğluna hərbi forma geyindirib yola salanda haradan bilərdi ki, Vətənin azadlıq arzusu ilə yanan, həsrətdən dili quruyan torpaqlarına vüsal olacaq Vüsal kimi oğullar. O, haradan bilərdi ki, oğlunun Vüsalı Vətən olacaq. Bəy köynəyini kəfənlə əvəz edib Vətənə qurban deyəcək canını. Anasını dünyanın ən şərəfli adı ilə təltif edib onu şəhid anası kimi yüksək məqama yüksəldəcək.

İllər gəlib keçir... Vüsal artıq hərbi təhsilinin iki pilləsini də tamamlayıb zabit olmuşdu. Doğma Vətənin bir çox yerlərində xidmət edir hər bir zabit kimi Qarabağı azad etməyə can atırdı. Aprel döyüşlərində bir qığılcım parlamışdı Azərbaycanın səmasında, bu ilk addım olmuşdu Qarabağın azadlığı yolunda. Vüsal da bu döyüşlərin iştirakçısı olmağın qürurunu yaşamışdı. Amma ən böyük arzusu Şuşanı azad edənlərdən biri olmaq idi. Elə belə də oldu. O, Vətən savaşının ilk günündən döyüşlərə qatıldı və Şuşaya çatmaq şərəfinə nail oldu. Şəhadət şərbətini də elə Şuşada içdi. Bu gün onun məzarı başında dayanan hər kəs doğum yeri Şərur rayonunun Dizə kəndi, əbədiyyət qazandığı yer isə Şuşa şəhəri sözlərini oxuyanda yurdundan min kilometrlərlə uzaqda "Candan öncə Vətəndir!" – deyib şəhidlik zirvəsinə ucalan bu igidə əhsən deyir, ruhu qarşısında baş əyir. Bəli, şəhidlik qeyrət və hünər zirvəsidir. Hamımız bu müqəddəsliyə qovuşmağa hazırıq. Elə buna görə də şəhidlərin məzarları nəsillərin əbədi ziyarətgahına çevrilir.

Bu gün 35 yaşın tamam olur, şəhidim. Torpağı öz yarından, Vətəni anasından çox sevən şəhidim. Qəlbindəki Vətən sevgisi ilə döyüşə atılıb heç nəyi düşünmədən bir ovuc torpağa qurban gedən şəhidim. Sinəsi yox, sinədaşı medallar, ordenlərlə bəzənən şəhidim. Bəy otağını məzarla əvəz etməkdən çəkinməyib "Vətən candan əzizdir!" – deyən şəhidim. Vüsalı Vətən olan şəhidim. Daha nə deyim sənə, şəhidim. Vətən üçün min canı olsa, verə biləcək şəhidim. Vətən həmişə şəhidləri ilə var olur. Sən heç nəyi düşünmədən sipər etdin öz canını düşmənlərə. Və bu gün başımızın üzərində dalğalanan bu bayraq sənin kimi oğulların canı bahasına ucalır.

✍ Ramiyyə ƏKBƏROVA

*Axtarışlar, tapıntılar*

## Tumbultəpə yaşayış yerində arxeoloji tədqiqatlar



Tumbultəpə yaşayış yeri

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev və onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin mədəni irsimizin qorunmasına və tədqiqinə yönəlmiş tədbirləri, xüsusilə arxeoloji ekspedisiyaların fəaliyyəti üçün dövlət büdcəsindən maliyyə vəsaitinin ayrılması ölkəmizdə arxeoloji tədqiqatların və xarici ölkə alimləri ilə əməkdaşlığın genişlənməsinə səbəb olmuşdur. Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda beynəlxalq ekspedisiyalarla yanaşı, yerli ekspedisiyalar da səmərəli fəaliyyət göstərirlər.

AMEA Naxçıvan Bölməsinin Tumbultəpə arxeoloji ekspedisiyası Naxçıvan şəhəri ərazisində, Naxçıvançayın sağ sahilində yerləşən Tumbultəpə yaşayış yerində tədqiqatları davam etdirməkdədir. Arxeoloji araşdırmalar zamanı yaşayış yerində Son Eneolit dövrünə və Antik dövrə aid maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Araşdırmalar göstərir ki, yaşayış yerinin Son Eneolit dövrü təbəqəsi burada Antik dövrə və müasir dövrə aid qəbirlərin qazılması zamanı dağıntıya məruz qalmışdır. Bununla belə tədqiqat zamanı Son Eneolit dövrü insanlarının dördkünc formalı evlərdə yaşadığı müəyyən edilmişdir. Eneolit dövrünün son mərhələsinə aid maddi mədəniyyət nümunələri indiyədək Naxçıvan Muxtar Respublikasında Ovçulartəpə, Yeni yol, Şorsu, Zirincli, Sərinbulaq kimi yaşayış yerlərindən, həmçinin Arazdan cənubda Culfa Kültəpəsi Köhnə



Eneolit dövrünə aid keramika



Antik dövrə aid torpaq qəbir

Pasqah, Şərqi Anadoluda Aştəpə, Sarıgül, Hanaqo və digər abidələrdən məlumdur. Ovçulartəpə mədəniyyətinin son mərhələsinə aid olan bu tapıntılar həmin mədəniyyətin geniş bir coğrafiyada yayıldığını göstərir. Tumbultəpə yaşayış yerinin tapıntıları isə bu mədəniyyətin lokal xarakter daşımadığını bir daha təsdiq edir. Keramika məmulatı formasına və digər xüsusiyyətlərinə görə Azərbaycanın həmin dövr abidələrində yayılan Leylatəpə mədəniyyətindən fərqlənir. Lakin bu abidələr, həmçinin Leylatəpə və Ovçulartəpə mədəniyyətləri arasındakı qarşılıqlı əlaqələri də öyrənməyə imkan verir. Bu baxımdan Tumbultəpə yaşayış yerinin tədqiqi qədim tariximizin öyrənilməsi üçün olduqca əhəmiyyətlidir.

Antik dövrə aid qəbir abidəsi və bu abidədən aşkar olunan zəngin tunc bəzəklər və keramika nümunələri də Naxçıvan tarixinin az öyrənilmiş səhifələrini tədqiq etmək baxımından əhəmiyyətlidir. Hazırda tədqiqatlar davam edir. Arxeoloji araşdırmalar Tumbultəpə yaşayış yerinin nə zamandan məskunlaşdırıldığını deməyə imkan verəcəkdir.

**Vəli BAXŞƏLİYEV**
*AMEA-nın müxbir üzvü*

## Elmi müşavirə keçirilib



Naxçıvan Dövlət Universitetində keçirilən elmi müşavirədə universitetin rektoru, dosent Elbrus İsayev çıxış edərək bildirib ki, müasirtipli və çoxprofilli dünya təhsil sisteminə inteqrasiya edən universitetin bugünkü inkişafını istər beynəlxalq əməkdaşlığın davamlılığında ortaq elmi araşdırmaların uğurla həyata keçirilməsində, elmi konfransların təşkil olunmasında, eyni zamanda mütərəqqi layihələrin reallaşmasında daha aydın şəkildə görmək olar. Təsadüfi deyil ki, bu il Naxçıvan Dövlət Universiteti (1001+) Böyük Britaniyanın "Times Higher Education Impact Rankings-2023" reytinq cədvəlində dünyanın ən yaxşı universitetləri siyahısında yer alıb.

Rektor universitetin beynəlxalq əlaqələrinin yüksək inkişafından da danışaraq vurğulayıb ki, bu il İT sahəsi üzrə nəhəng şirkət olan IBM və "Robotex Türkiyə" ilə əldə olunan əməkdaşlıq nəticəsində universitetin texnologiya həllərinə çıxış imkanlarının artırılmasına, innovasiya yönümlü layihələrin dəstəklənməsinə və inkişaf etdirilməsinə, strateji problemlərə uyğunlaşdırılmış ixtisaslı kadrların yetişdirilməsinə töhfə verəcək.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikasının 2023-2027-ci illər sosial-iqtisadi inkişafı ilə əlaqədar təsdiq olunan Dövlət Proqramında universitetin nəzdində ingilisdilli orta məktəbin yaradılması layihəsinin icrası nəzərdə tutulub. Proqramın səmərəli icrası nəticəsində bütün uğurlarla yanaşı, eyni zamanda ali təhsil müəssisəsi ilə digər ölkələrin ali məktəbləri arasında əməkdaşlığın gücləndirilməsi, həmçinin universitetlərdə SABAH, ingilisdilli Tibb fakültəsi, tibbi tədqiqat klinikası kimi yeni məzmunlu proqramların tətbiqi üzrə layihələrin həyata keçirilməsi də mümkün olacaq.

Müşavirədə Elm və İnnovasiyalar üzrə prorektor Elsevər Əsədov universitetin elmi fəaliyyət strategiyası, Elm və İnnovasiyalar bölməsinin müdiri Elnarə Allahverdiyeva çıxış edərək "Times Higher Education Impact Rankings" (THE) reytinq cədvəli haqqında geniş məlumat veriblər.

Sonda Web of Science, Scopus indeks bazalarında məqalə nəşr etdirən və məqalələrinə istinad sayı çox olan müəllimlərə plaket təqdim olunub. Beynəlxalq elmi bazalarda məqalə nəşr etdirən digər müəllimlər isə diplom ilə təltif ediliblər.

*Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi*

## Vergi daxilolmaları 36 faiz artıb

Naxçıvan Muxtar Respublikasında vergi daxilolmalarında müsbət dinamika davam edir. 2023-cü ilin 6 ayında muxtar respublikanın Dövlət Vergi Xidmətinin xətti ilə büdcəyə 75,9 milyon manatdan çox vergi daxil olub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 36 faiz və ya 20 milyon manat çoxdur. Təkcə bu ilin iyun ayı üzrə vergi daxilolmalarında 2022-ci ilin müvafiq dövrünə nisbətən 20,8 faiz və ya 2,2 milyon manat artım qeydə alınıb.

*Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti*

## Cari ilin birinci yarısında görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə olunub

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsində 2023-cü ilin birinci yarısı ərzində görülmüş işlər və qarşıda duran vəzifələrlə bağlı iclas keçirilib. Naxçıvan Baş Gömrük İdarəsinin rəisi, gömrük xidməti polkovniki Vüqar Əliyev iclasda çıxış edərək bildirib ki, Ulu Öndərimizin 100 illik yubileyini qeyd edən ölkəmizdə bütün digər sahələrlə yanaşı, iqtisadi sahədə də aparılan uğurlu islahatlar, həyata keçirilən kompleks tədbirlər gömrük orqanlarını da əhatə edib, Dövlət Gömrük Komitəsi regionun ən nüfuzlu gömrük xidməti olmaq yolunda öz strateji hədəflərinə doğru inamla irəliləyib. Komitə rəhbərliyinin tövsiyə və tapşırıqlarına uyğun olaraq gömrük işi sahəsində dövlət siyasətinin Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilməsi üçün kompleks tədbirlər görülüb, gömrük işinin əsas istiqamətləri üzrə müsbət nəticələr əldə edilib.

Hədəfləmə və koordinasiya şöbəsinin rəisi, gömrük xidməti polkovnik-leytenantı Rahil Tahirli Naxçıvan Baş Gömrük İdarəsi tərəfindən 2023-cü ilin birinci yarısı ərzində görülmüş işlərlə bağlı hesabat məruzəsi ilə çıxış edib. Vurğulanıb ki, 2023-cü ilin yanvar-iyun ayları ərzində Naxçıvan Baş Gömrük İdarəsi tərəfindən qeydə alınan idxal əməliyyatlarının həcmi 67 milyon 804 min ABŞ dolları, ixrac əməliyyatlarının həcmi isə 7 milyon 936 min ABŞ dolları dəyərində olub. 2022-ci ilin eyni dövrü ilə müqayisədə idxalın həcmi 1,2 dəfə, ixracın həcmi isə 2,9 dəfə artıb.



Naxçıvan Baş Gömrük İdarəsi tərəfindən 2023-cü ilin birinci yarısı ərzində 41 milyon 650 min manat məbləğində gömrük ödənişləri toplanılıb. Toplanılmış gömrük ödənişləri 2022-ci ilin eyni dövrü ilə müqayisədə 23 milyon 632 min manat və ya 131 faiz artıq olub. 2023-cü ildə dövlət büdcəsinin formalaşdırılması üçün müəyyən olunmuş 53 milyon 278 min manata qarşı cari ilin birinci yarısı ərzində 36 milyon 22 min manat vəsaitin toplanaraq təyinatı üzrə köçürülməsi təmin olunub, illik proqnoz-tapşırıq 67,6 faiz yerinə yetirilib. 2023-cü ilin yanvar-iyun ayları ərzində toplanılmış vəsaitin 5 milyon 628 min manatı isə Naxçıvan Muxtar Respublikasının büdcəsinə köçürülüb.

Naxçıvan Baş Gömrük İdarəsi konsiqnasiya yolu ilə ixrac olunan mallardan yaranmış borcun geri qaytarılması istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirib. Ümumilikdə, 8 milyon 976 min ABŞ dolları məbləğində borcun 99,7 faizinin hüquqi və fiziki şəxslərin müvəkkil bankdakı hesablarına köçürülməsi təmin olunub, qalıq borc 24 min 360 ABŞ dolları təşkil edib.

2023-cü ilin 6 ayı ərzində Naxçıvan Baş Gömrük İdarəsi tərəfindən 40 cinayət faktı aşkarlanıb. Narkotik vasitələrin, psixotrop və güclü təsir edən maddələrin qaçaqmalçılığı ilə bağlı 26 cinayət işi açılıb. 2 halda qanunsuz olaraq, ümumilikdə, 51 ədəd tapança patronunun daşınması, 6 halda aksiz markası ilə markalanmalı olan malların belə markalanma olmadan idxal edilməsi, 4 halda xarici valyuta sərvətlərinin xaricdən qaytarılmaması, 2 halda dövlət qeydiyyatından keçməyən dərman vasitələrinin qanunsuz idxalı faktları aşkarlanıb. Narkotik qaçaqmalçılığı faktları üzrə, ümumilikdə, 568,5 kq heroin, 139 qram həşiş qətranı, 47 qram marixuana, 26 qram tiryək, 11 qram psixotrop maddələr,110 qram güclü təsir edən maddələr qanunsuz dövriyyədən çıxarılıb.

Ötən ilin eyni dövrü ilə müqayisədə 372 iş çox, yəni, ümumilikdə, 473 inzibati xarakterli hüquqpozma faktı aşkar edilib.

Naxçıvan Baş Gömrük İdarəsi tərəfindən gömrük postlarında gömrük nəzarətinin və rəsmiləşdirilməsinin müəyyən olunmuş texnoloji sxem üzrə aparılması, resurslardan səmərəli istifadə diqqətdə saxlanılıb. Gömrük orqanlarına müraciət edən vətəndaşların qəbulu işi təkmilləşdirilib, vətəndaşların, xarici ticarət iştirakçılarının hüquqi maarifləndirilməsi işinə diqqət artırılıb. Cari ilin birinci yarısı ərzində xarici ticarət iştirakçıları ilə, ümumilikdə, 6 görüş keçirilib.

Rəqəmsal inzibatçılıq şöbəsinin rəisi, gömrük xidməti polkovnik-leytenantı Emin Eylazov gömrük sistemində strukturun və idarəetmənin təkmilləşdirilməsi istiqamətində aparılan islahatlarla bağlı tədqimatla çıxış edib. Sonra gündəlikdə olan digər mövzular üzrə çıxışlar olub, müzakirələr aparılıb.

Naxçıvan Baş Gömrük İdarəsinin rəisi, gömrük xidməti polkovniki Vüqar Əliyev iclasa yekun vuraraq qeyd edib ki, 2023-cü ilin birinci yarısı ərzində Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında gömrük işi sahəsində dövlət siyasətinin həyata keçirilməsi istiqamətində görülən işlər, əldə olunan nailiyyətlər son dövrdə gömrük orqanlarında aparılan islahatlarla birbaşa bağlıdır. Vurğulanıb ki, "Heydər Əliyev İli"ndə Ulu Öndərimizin doğma diyarı Naxçıvanda gömrük işi sahəsində daha yüksək nəticələrin qazanılması, qarşıya qoyulmuş vəzifələrin vaxtında və keyfiyyətlə icra olunması, gömrük orqanlarının fəaliyyətində şəffaflıq səviyyəsinin yüksəldilməsi, qaçaqmalçılıq və gömrük sahəsində digər hüquqpozma hallarının qarşısının alınması, sahibkarlıq subyektlərinin, ölkəmizin milli və iqtisadi təhlükəsizliyinin etibarlı şəkildə qorunması üçün bütün imkanlar səfərbər ediləcəkdir.

*Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsi*



# Göllərin gözəli, başıdı Göy-göl...

(reportaj)

Şəhərdən, necə deyərlər, səhərin gözü açılmamış yola düşməyi planlaşdırmışdıq. Saat 7 radələrində artıq Naxçıvan-Ordubad magistral yolunda idik. Təxminən, müəyyənləşdirdiyimiz vaxtda həmin magistralın Aza kəndi ərazisindən keçən hissəsinə çatırıq. Qeyd edim ki, gedəcəyimiz ünvan Ordubad rayonunda dörd turizm marşrutundan ən böyüyünün üstündə, lap sonunda yerləşən dillər əzbəri Göy-göldür. O Göy-göl ki:

*Zərif qönçə ikən solanı görən,*
*Gerçəyi öldürən, yalanı görən,*
*Neçə-neçə haqsız talanı görən –*
*Dağların gözünün yaşıdı Göy-göl.*

***(Əbülfəz Muxtaroğlu)***

Naxçıvanı “Açıq səma altında təbii abidələr muzeyi” adlandıranların sözlərində olan həqiqəti bu qədim yurd yerini yaxından tanıyanlar da təsdiq edərlər. Və burada heç bir mübaliğə, şişirtmə yoxdur... Adı müqəddəs kitabımız “Qurani-Kərim”də çəkilən Əshabi-kəhf, mərcangözlü Batabatda “Üzən ada”, indi getdiyimiz Göy-göl, saymaqla qurtarmayan neçə belə ünvan isə yadıma rus təyyarəçi-kosmonavtı, rəssam Leonovun həmişə xatırladığım, qədim diyarımıza verilən qiymətin ən gözəl və doğrusu olan sözlərini salır: “Kosmosdan Yer kürəsi son dərəcə gözəl, çəhrayı bir rəngdə görünür. Yerə qayıdandan sonra hara yolum düşürdüsə, onun rəngini axtarırdım. Nəhayət, Naxçıvanda tapdım. Kosmosdan baxanda bütün Yer kürəsi Naxçıvan torpağının rəngində görünür”.

...Söhbətimin əvvəlində qeyd etdiyim kimi, bu turizm marşrutu böyük bir ərazini əhatə edir. Sabirkənd, Baş Dizə, bir qədər irəlidə və solda Gilançay yaşayış məntəqələri. Həmin yolun sağında Biləv, Behrud, Parağa kəndləri qərarlaşıb. Bir qədər irəliləyib Ələhi kəndinə çatırıq. Sağda isə Nəsirvazdır. Xurs, Nürgüt kəndləri də yol üstündədir.

Həmin yaşayış məntəqələrinin hər birində müxtəlif illərdə kompleks quruculuq tədbirləri çərçivəsində məktəb, tibb məntəqələri, kənd və xidmət mərkəzləri üçün yeni binaların inşa olunması, kənddaxili yolların bərpa edilməsi, körpülərin salınması və digər inşaat işlərinin həyata keçirilməsi Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi quruculuq siyasətinin ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə muxtar respublikada uğurla davam etdirilməsi və qədim yurd yerimizə qayğısının ifadəsidir. Təbii ki, bu, insanlar tərəfindən yüksək dəyərləndirilib, onların məskunlaşmasında, məşğulluqlarının təmin olunmasında mühüm rol oynayıb, kənd sakinlərinin yaşayış tərzinin, gün-güzəranlarının yaxşılaşmasına, həyat səviyyəsinin yüksəlməsinə öz təsirini göstərib. Elə yolboyunca rastlaşdığımız şəxsi avtomobillər, yeni salınmış fərdi yaşayış evləri də bunu sübut edir. Necə deyərlər, görünən dağa nə bələdçi?

Dağlıq zona olduğu üçün həmin yaşayış məntəqələrində spesifik sayılan bəzi təsərrüfat sahələrinin – heyvandarlığın, maldarlığın, bağçılığın, arıçılığın inkişaf etdirildiyi kəndlərdə qazanılan uğurlar getdikcə artır, bol məhsul istehsalına nail olunur. Bununla da ailələrin iqtisadiyyatı güclənir. Yeri gəlmişkən, bu yaşayış məntəqələrində də ailə təsərrüfatlarının fəaliyyəti diqqət mərkəzində saxlanılıb. Hər il muxtar respublikanın paytaxtında müxtəlif sahələr üzrə təşkil edilən yarmarkalarda həmin yaşayış məntəqələrindən gətirilən məhsullara tələbat getdikcə artır. Çünki alıcılar da yaxşı bilirlər ki, həmin ünvanlardakı təmiz hava şəraitində yetişən məhsullar tam orqanikdir. Belə məhsulların isə insan orqanizmi üçün nə qədər çox faydalı olduğu isə hamımıza bəllidir...



...İllərdir ki, muxtar respublikada elektrik enerjisinə olan tələbatın tam ödənilməsi dövlət başçısının muxtar respublikaya qayğısının ifadəsidir. Bununla belə qədim diyarımızda mövcud olan təbii resurslardan və digər potensialdan istifadə edilərək yeni enerji mənbələrinin yaradılması üçün ölkə başçısının tapşırıqlarına əsasən genişmiqyaslı tədbirlər həyata keçirilir. Hazırda Ordubad rayonunda artıq neçə illərdir ki, fəaliyyət göstərən Biləv Su Elektrik Stansiyasından sonra daha iki ünvanda tikinti işləri aparılır ki, bunlardan biri də Tivi kəndi ərazisində inşa edilən yeni su elektrik stansiyasıdır. Tikilib başa çatdırıldıqdan sonra həmin stansiya muxtar respublikanın enerji şəbəkəsinə öz töhfəsini verəcək, burada yeni iş yerləri yaradılacaq, əhalinin məşğulluq imkanları artacaq. Yeni tikintinin yanından keçib Bist kəndinə çatırıq. Bu yaşayış məntəqəsindəki kənd meydanında dayanaraq, necə deyərlər, nəfəsimizi dəririk. İllərdir ki, dostluq etdiyimiz ***Hüseyn Hüseynov***la da burada görüşüb hal-əhval tuturuq. Məlumat üçün bildirim ki, bu el ağsaqqalı uzun illər kənd inzibati ərazi dairəsi üzrə nümayəndə vəzifəsində çalışıb; öz xeyirxahlığı ilə təkcə bu yaşayış məntəqəsinin deyil, ətraf kəndlərin də ağsaqqalına çevrilib. Bu gün də ağsaqqallıq missiyasını şərəflə doğruldur.



Hüseyn müəllim deyir ki, illər öncə bu kəndlərə gəlib çıxmaq üçün saatlarla vaxt itirməliydin. İtirilən təkcə vaxt olsaydı nə vardı ki... Elə bu səbəbdən də o vaxtlar çoxları, xüsusilə gənclər belə yaşayış tərzindən bezib öz doğma od-ocaqlarından köçərək muxtar respublikanın aran zonalarına üz tutdular. Ancaq müstəqillik illərində bu proses öz həllini tapdı. Belə ki, dövlətimizin ucqar yaşayış məntəqələrinə qayğı göstərməsi bu köçün qarşısını aldı, hətta köçüb gedənlərin çoxu öz dədə-baba torpağına qayıtdı, bağlı qapılar açıldı, insan hənirini yadından çıxarmış evlərə yeni nəfəs gəldi, kənd adamları gün-güzəranlarını yenidən qurmağa başladılar. Tam səmimiyyətlə deyim ki, bu gün heç bir dağ yaşayış məntəqəsinin sakini belə ucqar ünvanlarda ömür sürməkdən narazılıq etmir. Niyə də etsin? Daim işığı, suyu, qazı var. Yaxşı yaşamaq üçün insanlara bunlar lazım deyilmi? Hər bir kənd adamının süfrəsində özünün çörəyi, yağı, balı, digər heyvandarlıq məhsulları, hələ yaz-yay fəsillərindən başlayaraq hazırladıqları qış tədarükü var. Hər biri mal-heyvan, toyuq-cücə saxlayır, bağ becərir, əkinçiliyin bəzi sahələri ilə məşğul olur. İstehsal etdiyi məhsulların böyük bir qismini dükan-bazara çıxarır. Onu da deyim ki, bu kəndlərdə emal və istehsal olunan məhsulların, hətta Bakıda da müştəriləri var.

Hüseyn müəllim onu da diqqətimizə çatdırır ki, ölkə başçısının muxtar respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı imzaladığı Sərəncamla qəbul edilmiş Dövlət Proqramı bu yaşayış məntəqələrinin sakinləri tərəfindən də böyük razılıqla qarşılanıb. Çünki həmin dövlət sənədində ucqar dağ yaşayış məntəqələrində də bir sıra tədbirlərin keçiriləcəyi nəzərdə tutulub. Bu isə o deməkdir ki, sabah bu kəndlərin gözəlliyinə yeni çalarlar qatılacaq, öz istirahətini bu ünvanlarda keçirmək istəyənlərin sayı daha da artacaq (Onu da qeyd edim ki, bu turizm marşrutunu əhatə edən kəndlərin bir çoxunda sakinlər öz evlərini buraya gələnlərə verir, onlar üçün hər cür məişət şəraiti yaradırlar. Bunu isə həmin sakinlərin muxtar respublikada kənd turizminin inkişafına töhfəsi hesab etmək olar).Bütün bunlar isə kənd sakinlərinin sosial rifah halının daha da yüksəlməsinə səbəb olacaq.

Hüseyn Hüseynovdan, kənd meydanına yığışmış digər sakinlərdən ayrılaraq “Yolçu yolda gərək”, – deyib yolumuza davam edirik.

Nürgüt kəndinin çıxacağında bizi buradakı hərbi hissədə müqəddəs əsgəri borcunu yerinə yetirən ***Ayxan Cəfərli*** qarşılayır, məqsədimizi öyrənir, lazımi yerlə əlaqə saxlayaraq bizə uğurlu yol arzulayır.

Bizi Göy-gölə öz şəxsi “Niva”sında aparan Nürgüt kənd inzibati ərazi dairəsi üzrə nümayəndə ***Məhərrəm Həbibov*** bu yerlərin hər daşına, hər qayasına yaxşı bələddir; həm də maraqlı və söhbətcil yolyoldaşıdır:

– Elə həftə olmaz ki, gölə bir, ya iki dəfə getməyəm. Gölün ərazisinə müqəddəs yer kimi baxıram. Burada sanki insanın ruhu təzələnir. Bir azdan siz də görəcəksiniz. Kiçik bir ünvanda ilin dörd fəslini müşahidə etmək dünyanın heç bir yerində olmayıb. Bu, Ulu Tanrının qədim yurd yerimizə müqəddəs bəxşişidir:

*Bura fəsillərin birlik ocağı,*
*Neçə şəlalənin dayanacağı,*
*Bura bir möcüzə, cənnət bucağı –*
*Göllərin gözəli, başıdı Göy-göl.*

Təbii ki, o möcüzəyə, cənnət bucağına, göllərin gözəlinə tez çatmağa tələsirik. O cənnəti görmək, zövq almaq üçün, bir daha belə bir məmləkətdə yaşamağımızla qürur duymaq üçün... Hələ ki, yol gedirik. Məhərrəm müəllimsə öz şirin söhbətindədir. Xan bulağından, Yeddi çeşmədən (əslində, niyə belə adlandırırlar, öyrənə bilmədim, maraqlıdır ki, həmin ərazidə 20-yə yaxın dumduru və diş-göynədən bumbuz suyu olan çeşmə çağlayır), İsgəndərli, Çınqıllı, Ərəzin çeşmələrindən, Soğanlıqdan danışır. Təbiət möcüzələri olan bu çeşmələr ilboyu bura gələnləri qarşılayıb yola salır. Yeri gəlmişkən, onu da vurğulayaq ki, həmin çeşmələrin bəzilərinin suyu Əyriçaya, bəzilərinin suyu isə Saqqarsu çayına qovuşur. Bu iki çay isə vaxtilə mövcud olmuş “Çillək” adlı kənddə birləşir. Bu gün Gilançay kimi tanıdığımız çayın mənbəyi həmin çaylardır...

Məhərrəm Həbibov bu gözəlliklər məskənində mövsümdə mal-heyvan bəsləyən insanlardan, onların məskunlaşdıqları obalar barədə söhbət açır – Aza yurdu, Ərəzin yurdu, Cuğa yurdu, Tillək meşəsi... Ucu-bucağı görünməyən bu ərazilər illərdir ki, öz səxavətini buraya üz tutanlardan əsirgəmir.

...Göz gördükcə uzanan yaşıllıqlar içərisində rəngbərəng güllərin ətri az qala insanı bihuş edir. Məhərrəm müəllim bu gül-çiçəyin arıçılığın inkişafındakı rolundan danışır, bu ərazilərdə yabanı halda bitmiş müalicəvi otlardan bəhs edir.

Yanından keçdiyimiz bulağın suyundan içmək üçün avtomobildən düşürük. Məhərrəm Həbibovun qarşıdakı dağın zirvəsinə diqqətlə baxdığını görürəm. Sakitcə dillənir:

– Baxın, bu dağların əbədi sakini qartal. Bu ərazilərdə qartal çoxdur. Sanki dağlarımızın keşiyində durublar. Bir də ki, qartalların məskəni həmişə uca dağların zirvələri olub. Bir neçə saniyə möhtəşəmlik zirvəsindən ətrafı məğrur-məğrur seyr edən qartala baxırıq. Məhərrəm müəllimdən qartalın nə üçün belə sakit dayandığını soruşmaq istəyirəm. Elə bu anda qartal ürəyimizdən keçənləri oxuyubmuş kimi qonduğu zirvədən daha yüksəkliyə – səmaya qalxır.

*Bir yanda keygidar zirvəyə qonmuş,*
*Çilçıraq şəlalə havada donmuş,*
*Heykəltəraş gecə büllurdan yonmuş? –*
*İllərdən-illərə daşıdı Göy-göl.*

Artıq Göy-gölə çatmağımıza az qalıb. Bunu gölü əhatələyən dağların zirvəsini bürümüş duman-çən, dağların duman-çən olmayan yerlərində gözə dəyən qar... və xalıya bənzər yaşıllıq göstərir. Təzada diqqət verirsinizmi?

*Bir yanda qar yağır, çən-duman çöküb,*
*Bir yanda bənövşə boynunu büküb,*
*Bir yanda nərgizlər ləçəyin töküb –*
*Fəsil tanımaqda naşıdı Göy-göl.*

Əziz oxucular, Göy-gölə qədər gördüklərimizi, yaşadığımız hissləri sizə də çatdırdıq. İstərdik ki, göldə gördüklərimizi fotolar vasitəsilə sizə təqdim edək. Göy-göl sizi də gözləyir.

*Dədə Qorqud kimi ozanlar görmüş,*
*Teymur tək növraqlar pozanlar görmüş,*
*Neçə Koroğlular, Qazanlar görmüş –*
*Bu şiş qayaların yaşıdı Göy-göl.*

**Muxtar MƏMMƏDOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## “Ailələrimizi tanıyaq” layihəsi çərçivəsində görüş

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Culfa Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Ailələrimizi tanıyaq” layihəsi çərçivəsində yeniyetmə və gənclərin iştirakı ilə Culfa şəhərində yaşayan uzunömürlü, evliliklərinin 50 illiyi tamam olan nümunəvi Bağırovlar ailəsində görüş keçirilib. Görüşdə Culfa Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi – Mədinə Əlisoy çıxış edib.

Sonra Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Aparatının Ailə, qadın problemləri və gender məsələləri şöbəsinin müdiri Könül Babayeva “Ailələrimizi tanıyaq” layihəsinin mahiyyətindən bəhs edib.

Görüşdə uzunömürlü, evliliklərinin 50 illiyi tamam olan nümunəvi ailənin başçısı Muxtar Bağırov və ömür-gün yoldaşı Südabə Bağırova öz həyatlarından, ailələrindən, əmək fəaliyyətlərindən və ailənin uzunömürlü olmasından danışıb, göstərilən diqqət və qayğıya görə dövlətimizə öz minnətdarlıqlarını bildiriblər.

Tədbir fəal gənclər ilə diskussiya xarakterli, səmimi söhbətlə davam edib.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Elan

Naxçıvan “Tikiş” Açıq Səhmdar Cəmiyyəti bildirir ki, 14 iyul 2023-cü ildən 14 Avqust 2023-cü ilə qədər səhmdarların növbəti yığıncağı keçiriləcəkdir. Yığıncaq Naxçıvan şəhəri, İdris Məmmədov küçəsi 1-də 14 avqust 2023-cü ildə saat 14$^{00}$-da olacaqdır.

Gündəlikdə duran məsələ.

*1. “Tikiş” ASC-nin 2022-ci il fəaliyyəti haqqında hesabat.*

*2. “Tikiş” ASC-nin ləğv edilib Məhdud Məhsuliyyəti Cəmiyyətinə çevrilməsi.*

*3. Digər məsələlər.*

## İtmişdir

Şərur rayonunun Maxta kəndində yaşamış Zamanov Məhərrəm Qəhrəman oğlunun adına verilmiş JN-536$^{A}$ və JN-536$^{B}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə”lər itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Şəhriyar kənd sakini İsmayılov Rəşadət Teymur oğlunun adına verilmiş JN-446 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Quliyev Rafiq Həsən oğlunun adına olan A-461578 nömrəli Əfqanıstan müharibəsi veteranı vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Ərəzin kəndində yaşamış Zeynalov Nadir Mahmud oğlunun adına olan JN-184$^{B}$ inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Ərəfsə kənd sakini Hacıyev Elşad Qafar oğluna məxsus həyətyanı torpaq sahəsinə verilmiş JN-130$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, 6-cı küçə, döngə 5, ev 2 ünvanında yaşamış Qasımov Nazim Həbib oğlunun adına verilmiş 3005 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Məcid Əkbərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 427